# *Muxtar BABAYEV:* "COP29 konfransı çərçivəsində bir çox tarixi addım atdıq"

**"Ölkəmiz regionda COP konfransına evsahibliyi edən ilk dövlət kimi xüsusi məsuliyyət daşıdığını dərk edir. Biz istəyirik ki, dünya buzlaqların əriməsindən tutmuş dənizlərin qurumasınadək insanların üzləşdiyi iqlim problemlərini anlasın. Eyni zamanda bərpaolunan enerji potensialımız və yaşıl enerji dəhlizləri ilə bağlı planlarımız vasitəsilə bu problemlərin həllində necə əsas rol oynaya biləcəyimizi göstərmək istəyirik. COP29 konfransı zamanı bir sıra tarixi addım atdıq".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezidentin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) prezidenti Muxtar Babayev Özbəkistanda keçirilən ilk Səmərqənd Beynəlxalq İqlim Forumu çərçivəsində "Qlobal iqlim çağırışları qarşısında Mərkəzi Asiya: ümumi rifah naminə birləşmə" mövzusunda çıxışı zamanı söyləyib.

M.Babayev bildirib ki, COP29 çərçivəsində inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il azı 300 milyard ABŞ dollarının səfərbər edilməsi ilə bağlı maliyyə hədəfi razılaşdırılıb. "Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq karbon bazarları üçün struktur üzərində aparılan işləri tamamlamışıq. Zərər və ziyanların kompensasiyası fondu istifadəyə verilib. 50-dən artıq ölkə COP29-un Yaşıl enerji zonaları və Dəhlizləri Haqqında Bəyannaməni təsdiqləyib. Bu irəliləyişlər Bakıda əldə olunub və çoxtərəfli sistemi gücləndirib. Eyni zamanda, Paris Sazişindən sonrakı ikinci onillikdə trilyonlarla dollar dəyərində iqlim maliyyəsinin açılmasına şərait yaradacaq. Buna nail olmağımızda bizə kömək edən hər kəsə təşəkkürümü bildirirəm", - deyə o qeyd edib.

M.Babayev həmçinin bildirib ki, bu il bütün ölkələr yeni reallıqla üzləşib və müvafiq olaraq qarşıdakı vəzifələr də dəyişib: "Paris Sazişi qəbul edildiyi vaxtdan keçən 10 ildə biz çoxtərəfli iqlim sisteminin əsaslarını və arxitekturasını qurmuşuq. Hazırda isə tam həyata keçirmə mərhələsindəyik. İrəliləyiş artıq birgə razılaşdırdığımız qərarlardan deyil, ayrı-ayrılıqda atdığımız addımlardan asılı olacaq. Hər bir ölkə öz növbəsində irəliyə addım atmalıdır".

O daha sonra deyib: "Əvvəla, Bakıda razılaşdırılmış maliyyə hədəfini əsas götürərək, indi pakt qəbul edilməlidir. Donor ölkələr 300 milyard dollarlıq hədəfə öz ədalətli töhfələrini necə verəcəklərini müəyyən etməlidirlər. Burada iştirak edən çoxsaylı beynəlxalq maliyyə institutlarına və inkişaf banklarına fəal iştiraka görə minnətdaram. Bu, ümumi öhdəlik idi və birlikdə yerinə yetirilməlidir.

Biz 2035-ci ilə qədər iqlim maliyyəsinin illik 1,3 trilyon dollara çatdırılması üçün Bakıdan Belenə qədər olan yol xəritəsi üzərində işləməyə davam edəcəyik. Məqsəd 2035-ci ilə qədər iqlim maliyyəsini illik 1,3 trilyon dollara çatdırmaqdır. Qarşıda bizi çox önəmli bir il gözləyir, belə ki, bu müddət ərzində hər bir ölkə öz milli iqlim planlarında daha yüksək ambisiyalar nümayiş etdirməlidir.

Hamımız Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) kimi tanınmış istixana qazı emissiyalarını necə azaldacağımızı əks etdirən planlar hazırlamalıyıq. Bu NDC-lərin sentyabr ayından gec olmayaraq təqdim edilməsi son dərəcə vacibdir. Bu, həmin sənədlərin COP30 konfransına qədər ümumiləşdirilərək kollektiv irəliləyişimizi qiymətləndirməyə imkan verəcək.

Bundan sonra bizə iqlim dəyişikliyinin nəticələrinə necə uyğunlaşacağımıza dair milli adaptasiya planı lazımdır. Və nəhayət, etibar və əminliyi gücləndirmək üçün şəffaflıqla bağlı ilk hesabatlarımızı təqdim etməliyik. İnkişaf etməkdə olan bir ölkə kimi Azərbaycan belə hesabatların hazırlanmasının çətinliyini anlayır. Biz Bakıda potensialın artırılması üçün seminarlar təşkil etmişik, BMT sistemi ilə birlikdə dəstəyi səfərbər etmişik. Bu gün bu dəstək bütün ehtiyacı olanlar üçün əlçatandır.

Biz həmçinin hesab edirik ki, bu hesabatların maksimum dərəcədə etibarlı və şəffaf olması hər kəsin marağındadır. Çünki məhz belə hesabatlar yaşıl investisiyalar üçün yaşıl işıq yandıra bilər. Hədəf və müddətlərin müəyyənləşdirilməsi, prioritetlərin təsnifatı, hökumətlərin iqlim dəyişiklikləri ilə sadiqliyinin nümayişi və şəffaf hesabatlılıq güclü bazar siqnalları verəcək. Bu siqnallar kapitalı cəlb edəcək və yönəldəcək. Gələcəyimizi formalaşdırmağın yeganə yolu kollektiv fəaliyyətdir".

Azərbaycan. - 2025.- 6 aprel (№ 66).- S.3.